# Gürcüstan və Azərbaycan həmişə bir-birinə dayaq və dəstək olub

Azərbaycanın Gürcüstandakı səfirliyinin binası önündə ordumuza dəstək aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşəbbüsü ilə keçirilən tədbirdə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərkəzin rəhbəri Aygül İsayeva çıxış edərək bildirib ki, Gürcüstan azərbaycanlıları hər zaman Azərbaycan xalqının yanındadırlar. "Qarabağ Azərbaycandır və Gürcüstan Azərbaycanın haqq işini dəstəkləyir", - deyə o vurğulayıb.

Sonra Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxış edərək bildirib ki, son günlər Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın sərhəd bölgəsindəki Tovuz rayonu istiqamətində törətdiyi təxribat bütün dünyanın diqqət mərkəzindədir. Dünya azərbaycanlıları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun Ermənistanın hərbi təxribatlarına layiqli cavab verməsini çox yüksək qiymətləndiriblər.



D.Həsənov Gürcüstan hökumətinin hər zaman Azərbaycanı dəstəklədiyini qeyd edib. Bildirib ki, Gürcüstan və Azərbaycan həmişə bir-birinə dayaq və dəstək olub. Gürcüstan azərbaycanlıları da hər zaman yüksək vətənpərvərlik hissi ilə seçiliblər.

Çıxış edənlər Azərbaycanın dünyada sülhsevər ölkə kimi tanındığını və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu, bununla yanaşı, işğal altındakı ərazilərimizi azad etməyə qadir olduğunu bildiriblər.

Çıxışlarda Gürcüstan azərbaycanlılarının Azərbaycan uğrunda döyüşməyə hazır olduqları da diqqətə çatdırılıb.

Əllərində Azərbaycan və Gürcüstan bayraqlarını dalğalandıran aksiya iştirakçıları "Qarabağ Azərbaycanındır!", "Şəhidlər ölməz, Vətən bölünməz!", "Ermənistan, Qarabağdan əlini çək!" kimi şüarlar səsləndiriblər.

Azərbaycan.-2020.-19 iyul.-S.5.